# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# İstehsalat tullantılarının axıdılması (atılması) qadağın edilən istehsalat və müəssisə növləri haqqında

# Qərar № 122

***Bakı şəhəri 13 iyul 2000-ci il***

«Su təchizatı və tullantı suları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli, 266 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. «Su təchizatı və tullantı suları haqqında» Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinə müvafiq olaraq istehsalat tullantılarının ümumi istifadədə olan kanalizasiya sisteminə axıdılması (atılması) qadağan edilən aşağıdakı istehsalat və müəssisə növləri təsdiq edilsin:

- neft çıxarma və neft emalı sənaye sahəsinin istehsalat və müəssisələri;
- kimya sənaye sahəsinin istehsalat və müəssisələri;
- neft kimya sənaye sahəsinin istehsalat və müəssisələri.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ.***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 iyul 2000-ci il, № 07, maddə 569) («VES Consultancy» LLC).***

© *VneshExpertService*